8 şəvval 1332 | Doqquzuncu il | 18-го августа 1914 г.

# ملانصرالدين

№24 Qiyməti 12 qəpik. МОЛЛА НАСРЕДДИНЪ Цена 12 k. № 24



İsfahanda Ağayi-Nəcəfinin nişangahı

Litoq. S.Bıxova.

*(Ağanın axırıncı sözləri): "Cənab Allah məni dünyadan tez öz (civari-rəhmətinə) apardı ki, iranlılara etdiyim zülmün zəhmətindən xilas olum". (Sidq Ağayi-Nəcəfi)*



**Adres:** *Tiflis, Davidov küçəsi nömrə 24.*
**Адресъ:** *Тифлисъ, Давидовская, 24.*
**Teleqram üçün:** *Tiflis, "Molla Nəsrəddin".*
**Для телеграммъ:** *Тифлисъ, "Молла Насреддинъ".*
***Подписная цена:***
***На годъ - 6 руб.***
***6 месяцъ - 3 р. 50 к.***
***3 месяцъ - 2 р.***
***1 месяцъ - 40 к.***
Adres dəyişmək haqqı 3 dənə 7 qəpiklik markadır.

**Qafqazda və Rusiyada**
**12 aylığı - 6 manat**

"-----------------------" 6 aylığı - 3 manat yarım
"-----------------------" 3 aylığı - 2 manat
"-----------------------" 1 aylığı - 40 qəpik
*Əcnəbi məmləkətlərdə 12 aylığı - 7 manat*
"-----------------------" 6 aylığı - 4 manat

***Tək nüxsəsi idarəmizdə 10 qəpik, özgə şəhərlərdə 12 qəpik.***

## İXTAR

Bu nömrəmiz nəqqaşımızın həbsə alınmağına görə beş-on gün yubandı, budur bir növ ilə təzə nəqqaş tapıb işə şüru etdik. Məcmuəmizin yubanmağından və nəqqaşımızın xamlığından yana hörmətli oxucularımızdan üzr istəyirik. Çünki səbəbkar Avropa ümumi müharibəsidir, nəinki biz.

## ƏDƏBİYYAT

Qardaş, nə rəva sahibi-vicdan ola qızlar?
Təhsili-ülum eyləyə, insan ola qızlar
Xoşdur bu ki, bielm ola heyvan ola qızlar
Məhbus ola həm bisərü saman ola qızlar
Qardaş! Nə rəva sahibi-vicdan ola qızlar?

Çox eybdi qızlar olalar məktəbə rağib
Məktəb nədi, ya qız nədi olsun ona talib
Qoy ermənilər, ruslar açsınlar məkatib
Elmü hünərə səy eləsin qövmi-əcanib
Qardaş! Nə rəva sahibi-vicdan ola qızlar?

Lazımdı müsəlman qızı çöllərdə, alaxda
Daim əli palçıqda və ya zığda, qalaxda
Çiynində sənək, su daşıya gündə bulaxda
Heyvan kimi möhkəm vurula başına noxda
Qardaş! Nə rəva sahibi- vicdan ola qızlar?

Səkkiz yaşa yetcək ola bir peysərə övrət
Molla tapa "ənkəhtu va zəvvactuya fürsət"
Hər kimsə görə bu əməli eyləyə nifrət
Hər kəs bu işi bir düşünüb etməyə ibrət
Qardaş! Nə rəva sahibi-vicdan ola qızlar?

Təhsili-kəmalat edə qoy Nina, Marusa
Asudə və azadə gəzə Sonya, Turusa
Elmü ədəbə rağib ola Milləti-İsa
Hurani-behişt ilə dola səhni-kəlisa
Qardaş! Nə rəva sahibi-vicdan ola qızlar?

Eynəkli hacı gəh topuğa, gəh nala vursun
Həmmamə gedib rəng-həna saqqala vursun
Yetmiş iki illik kalı tazə kala vursun
Elmə çalışan qızları həp qandala vursun

Qardaş! Nə rəva sahibi-vicdan ola qızlar?

Heyvan ola qızlar
Nadan ola qızlar
Vəhşiyyətə daim
Ünvan ola qızlar.

*Gözlük*

## MOD

Dünyada necə ki, hər şey dəyişilir, habelə mod da dəyişilir. Mən özüm bir cavan adamam və 14 ildi Bakıdayam və görürəm ki, o şey ki, bildir mod idi, dəxi bu il moddan düşüb.

Məsələn, 1901-ci ildən 1905-ci ilə kimi mod idi cüt-cüt gəzmək. Axşam olan vaxt çıxardın Veliki Knyajski küçəyə və görərdin ki, elə adamdı cüt-cüt gəzir. Biri cahil biri qoca, biri cahil biri qoca. Soruşardın ki: "bu cavan kimdir?" Cavab verərdilər ki, bu ağa Kərimdir, bu ağa Teymurdu, bu ağa filənkəsdi.

1905-ci ildən 1907-ci ilə kimi mod idi sosialistlik. Elə ki, gedərdin Qubernat bağına, görərdin ki, skamiyaların üstü doludu uzunsaç kişilər ilən, soruşardın: "a balam, bunlar kimdilər?" Cavab verərdilər ki: "bunlar sosial demokratdılar." Bu Qarazadədi. Bu Rəsulzadədi, bu Kazımzadədi, o birisi Axundzadədi, o birisi Şərifzadədi və qalanları da bu cürə, bu cürə zadədilər.

1907-ci ildən 1910-cu ilə kimi mod idi qoçubazlıq, quşbazlıq, itbazlıq. Elə ki, gedirdin Quba meydanına, görürdün ki, meydanın ortasında bir adam əllərini ata-ata var-gəl eləyir. Soruşardın ki: "bu cavan kimdir?" Cavab verərdilər ki, "bu filan rəhmətliyin qoçusudu". Bəli, elə ki, çıxardın Quberniski küçəyə, görərdin ki, bir qoç aparırlar, soruşardın "bu kimin heyvanıdı?" cavab verərdilər ki: "Bu Ağa Vahab ağanın qoçudu". Elə ki, gedərdin Karantinni küçəyə, görərdin ki, göyün üzünü göyərçinlər alıb, elə ki, soruşardın: "bu nə cəlaldı?" Cavab verərdilər ki: "Ağa Məmməd Həsən ağa quş uçurdubdur"...

*(Mabədi var)*

*Xartaxurt bəy*

## ƏŞAR

### ŞAMAXI MAHALINDA QABISTANIN XUDASI

*Şeyx oldu çun Həmid paşa dövranı tapdadı*
*Saldı ayağa ayeyi-Quranı tapdadı.*

*Gah oxşadıb xudaya, özün gəh peyğəmbərə*
*Ustadə, gah mürşidə, gah gahi bərbərə*

*Məqsudi çun hiylə idi girdi təzvirə.*
*Təzvirinə əgər baxıla oxşayır nərə*

*Bir nərsifət görün neçə insanı tapdadı*
*Şirvanı basdı keçdi Qabıstanı tapdadı.*

*Çox xanələr xərab elədi Şeyx Həmid paşa*
*Qabıstanın bitirdi işin başdan-başa*

*Gördükdə qov vurur bu kişi çaxmağın daşa*
*Ümmətləri görür deyir: "Ey şeyx çox yaşa!"*

*Ay Molla, bax bu şeyxə müsəlmanı tapdadı*
*Yıxdı, dağıtdı din evin, imanı tapdadı.*

*Təmir edib Şamaxıda "növ" xanə şeyximiz*
*Ağ daş ilə "etaj"ı iki danə şeyximiz.*

*Pul verməyib "materyala" denşanə şeyximiz*
*Bimuzd, xərcsiz girib eyvana şeyximiz*

*Vəd eyləyib beyişt ilə ustanı tapdadı*
*Rizvanı, hurini həmi qılmanı tapdadı.*

*Verdi hər adəmə dəxi bir qəbzi-etimad*
*Yığdı əvamı başına çun etdi ittihad*

*Gəlcək hüzuri-şeyxə qılıb cümlə inqiyad*
*Hər əmrinə əvam elədi bəs ki etiqad*

*Şöhrət ğapıb o vadidə Musanı tapdadı*
*Leylaya aşiq oldu, Tükəzbanı tapdadı.*



*Kabla Məhəmməd Cəfər*
*Getdiyin ağa mənim belimi sındırsın əgər ömrümdə bir gün orucumu yemişəmsə, inanmırsan bax dilimə.*



*Kabla Məhəmməd Cəfər! Oruc deyilsən ki?*
*Sən öləsən mən ömrümdə bir gün də oruc tutmamışam.*



*- Mənim adım Qasan Qaydaroviç Qadjiyovdur, səni adın nədir?*
*Меня завуть Гасан Гайдаровичь Гаджиевь*
*Nökərinin adı Kablayı Usubdur.*
*- А меня завуть твой слуга Кербалай Усубь.*



*Kərbəlayı Heydərqulu! Ağlın bu davadan nə kəsir, kim kimi basacaq?*
*Allahın hər kəsə iltifatı olsa, o basacaq.*



*Təqvimin yazdığına baxsaq bayram bazar ertəsidir.*
*- Yox buna şəkk var.*
*- Bu ay kəmyekdir.*
*- Hər halətdə gərək teleqraf ilə Şeyxülislamdan soruşaq...*

*Bəxş eylədi həva yerə məxluqə cənnəti*
*Karın görüb, keyfin də sürüb qoydu minnəti*

*Gülnaz Gülsənəmlə çəkib başqa ləzzəti*
*Ağuşə çəkdi Nazlını, bus etdi İzzəti*

*Sürtüb ayağına necə püstanı tapdadı*
*Yıxdı yerə nə... etdi nə?.. Zalxanı tapdadı.*

*Bais nədir? A Molla, ayılmaz təridlər*
*Bunca xəyanəti ki, görür bu müridlər*

*Səd heyf qaralandı əbəs ru səfidlər*
*Qaldı dəxi mənə və sənə boylə qeydlər*

*Fikrin çəkin ki, kim niyə cananı tapdadı?*
*Tiflisi, Bakını dəxi Şirvanı tapdadı*
*Əlqissə, bu Həmid niyə vicdanı tapdadı?*

*İmza: Həzrət Cürcis*

## TELEQRAF XƏBƏRLƏRİ

Tehran - Avropa davasının şiddət kəsb etdiyinə görə İran dövləti ikinci ehtiyat əsgərlərini silah altına çağırıbdır. Bu dəfə səkkiz yüz min tiryak suxtəsi və şirə çəkən, yüz yetmiş min ayağa su tökən camədar, can sürtən, doqquz min kənkan, pinəçi, iki yüz min meymun oynadan, şəbeh çıxardan çağrılıbdır və bunların hamısı əyriqılınc və fitilli tüfənglər ilə tamam kamal silaha dolublar. Rəvayətə görə bu ordu yer üzündə ən birinci ordu hesab olunur.

Naxçıvan - Cəfər ağa Tairovun ki, neçə müddətdir vəfat edibdir bu günlərdə vəsiyyətnaməsi meydana çıxdı, vəsiyyətnamədə otuz min manat Naxçıvanın progimnaziyasına və on min manat "Zadiyyə" məscidinin qayrılmağına vəqf edibdir. Bu şərtilə ki, bu pullar bir əmin və mütədəyyin şəxsin əlilə sərf olunsun. Rəvayətə görə mərhumun vərəsələri indiyə kimi şəhərdə əmin adam tapmadıqlarından vəsiyyətə əməl edə bilməyirlər.

Qoçan - Qoçan hakimi şahzadə Ədəlüddövlə Allahdan qorxduğu münasibətilə bu axırlarda qərar qoyubdur ki, rəiyyət ilə mehriban rəftar etsin. Odur ki, rəiyyətlərin bağırsaqlarında olan şeyləri öz mübarək əlilə çıxardır.

Şamaxı - Şamaxıda açılan "Nicat" cəmiyyətinin şöbəsi artıq ciddi-cəhd ilə işləməkdə və böyük-böyük iqdamat etməkdədirlər. Bu az vaxtın içində şəhərdən və camaatdan ötrü çox böyük işlər görülübdür.

## ELAN

Xidməti-ümum ağayani-üzzam ba kəmali-ehtiram ərz mişəvəd. Çun in xadim be həmvətənane xod Ağayi-Seyyid Abbas xəyyat sakini dər məhəlləye həyate-şahi dər axəre mahe mübarəke rəməzan müsafirət be Ətəbate-aliyyat xahəm nəmud və çənd cənazə əz aşiyan və dustane həmrah in canebəst ke dər Kərbəla və Nəcəf dəfn nümayəm, lihaza becəhəte bəradəran və həmvətənane xod elan midarəm ke əgər kəsi cənazeyi daştə başəd və mixahənd həml be Ətabət nümayənd bein çakər mühəvvəl fərmayənd və əz bəraye xatercəmi sahebane cənazə əgər bexahənd sənəd və zamin beişan xahəm dad ke bedune inke cənazeyi işanra dər rah be kodali beyəndazəm və ya be rudi əz rudha biyəfkənəm, bəd əz dəfne cənaze be Kərbəla ya Nəcəf əz dustan və aşinayane işan qəbz rəsid girifte əz cəhəte işan erestadə və sənəde xodra dəryaft minümayəm.

Abbas Musəvi. Mətbeəyi-Mirza Ələsgər təb şod duşənbə nuzdəhome şəban 1332 Tehran.

*Tərcüməsi*

## TEHRANDA ELAN

Cəmi ağaların qulluğuna ehtiram ilə ərz olunur: çun mən öz həmvətənlərimin qulluqçusu Ağa Seyid Abbas dərzi həyat şahi məhəlləsinin sakini bu orucluq ayının axırında Kərbəlayə, Nəcəfə səfər eləyəcəyəm və neçə cənazə də öz dost aşnamdan yanımca aparıram ki, Kərbəlada, Nəcəfdə dəfn eləyəm. Ona görə öz həmvətənlərimə və qardaşlarıma xəbər verirəm ki, hər kəsin cənazəsi olsa və istəsə ki, Kərbəlaya göndərməyə mənə versin aparım və əgər istəsə

ona xatircəmlikdən ötrü zamin də verirəm ki, məbada xəyallarına gələ ki, mən aparıb cənazələri yolda suya atacağam və ya bir çuxur yerə basdırıb gedəcəyəm. Kərbəlada, Nəcəfdə dəfn etməyə onların dostlarından və tanışlarından qəbz alıb gətirərəm.

*Abbas Musəvi*

## XIRIM XIRDA XƏBƏRLƏR

Təbriz - Yazırlar ki, müvəssiq mənbədən aldığımız xəbərə görə həzrət Əşrəf, Hacı Şücaüddövlə Təbrizin ən məşhur mütrübü Hüseynqulu xan ilə bahəm Dəvəçi məhəlləsinin namdar igidlərindən qırx min dilavər seçib Beljik dövlətinin davasına getdi. Bu səbəbə ki, niyə İranda olan beljik məmurları İran hökumətinə tabe olub, Təbrizdə onun əmirlərinə itaət etmirlər.

Genə yazırlar ki, Ağayi-Hacı Əmir Nizam dava eliyən dövlətlərə bildiribdir ki, hər hansının qoşununa külli buğda lazım olsa Lütgah adlı kənddə onun mübaşirinə xəbər versin.

## İRANDAKI DÖVLƏTİ ÇƏKİ DAŞLARI:

Səqt-min misqal-batman-təbrizi. Marağaye-Mərəndi, Həmədan batmanı, həşt abbası, noh abbası, siyəh, punza, həft dirəm, dəvanzdəh, pənc çərək nogi.

Hər kəs bu daşların hamısının nə vəzndə olmağını və hansı artıq və hansı əskik olduğunu bilsə onu ticarət naziri təyin edəcəklər.

## EŞİTMƏLİ ƏHVALAT

Bakı - Bu gecə "Baku" qəzetəsinin müdirinə (iraq dindən, məzhəbdən Fazil Dərbəndi kimi) aləmi-röyada deyiblər ki: "Osmanlı dövləti məmləkətindəki əcnəbiləri, ələlxüsus ermənilləri ənqəribdir ki, yer üzündən götürülsün". Bu hövlnak yuxunu gördükdə cənab müdir elə bir şiddət ilə qışqırıbdır ki, səsini Tiflisdə Xaçaturyans kirvə eşidib sərasimə olub nəhayət iztiraba düşübdür, incəvara sonra ayılıb görübdürlər ki, yuxudu. Yoxsa dünyayi-aləmi bir-birinə vuracaq imişlər.

London - Neçə vaxtdır ki, Nayibüssəltənənin vəzifəsini kəmali-kərahiyyət ilə dolandıran Nasirülmülk Sultan Əhməd şahın başına tac qoyandan sonra yaxasını qurtarıb, asda qaçan namərddir - deyə qaçıbdır Avropaya. Rəvayətə görə qol-qıçını madmazellərə bərk ovdurub dinci çıxdığına görə İrandan qurtarmağın nəzirini yerinə gətirib özünü ingilis ordusuna könüllü yazdırıbdır.

## POÇTA QUTUSU

Vladiqafqazda "Dəli"yə: Konsuldan yazmaqdan yorulduq bari bir siz də yorulunuz.

Gəncədə "Heyran"a - Çap olunmayacaq.

İrəvanda: "Kəndirbaz"a - Sənin məqalən ancaq bizi güldürdü, amma oxucularımızı güldürməz.

*Müdir və baş mühərrir:*
*Cəlil Məmmədquluzadə, Əliqulu Nəcəfov*

## İXTAR

Şəhərlərdə məcmuəmizi satan ağalardan kəmali-ehtiram ilə xahiş edirik ki, öz borclarını tezlik ilə idarəyə göndərsinlər və həmçinin bundan sonra da Bakıdakılar hər ay başı və sair şəhərdəkilər iki ayda bir hesablarını tamam-kamal məfruq etsinlər. Əks surətdə onlara jurnal göndərmiyəcəyik.

## DİŞ HƏKİMXANASI

Həmişə gecə-gündüz açıq, diş qayırmaq və təmizləmək muzdu münasibdir. Beş diş həkimi var ki, onların içində cərrah və piradov diş texniki Q.R.Qanzədir. Həkimxananın təkmil suni diş laboratoriyası var. Hər cür fövri sifariş 3 saatın içində əmələ gəlir.

V.Xaygnoy Mixailovski küçədə,
nömrə 76. 100-13

*Электроп. Грузинск.*
*Изд.Товарищества Больш. Ванкская ул. №12*

*Назначение нового вице консула въ Агдаме.*




*Görək hansı xan basacaqdır.*